Səməd Vurğun



AZƏRBAYCAN

Kiçik yaşlı uşaqlar və ibtidai sinif şagirdləri üçün

Səməd Vurğun

AZƏRBAYCAN

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
14 avqust 2001-ci il tarixli, 900 saylı
əmri ilə təsdiq və tövsiyə edilmişdir

Bakı-2001

AZƏRBAYCAN

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

Dağlarının başı qardır,
Ağ örpəyin buludlardır.
Böyük bir keçmişin vardır,
Bilinməyir yaşın sənin,
Nələr çəkmiş başın sənin.

Sıra dağlar, gen dərələr,
Ürək açan mənzərələr...
Ceyran qaçar, cüyür mələr,
Nə çoxdur oylağın sənin!
Aranın, yaylağın sənin.

Bu yerlərdə limon sarı,
Əyir salır budaqları,
Dağlarının dümağ qarı
Yaranmışdır qarlı qışdan,
Bir səngərdir yaranışdan.



Lənkəranın gülü rəng-rəng,
Yurdumuzun qızları tək.
Dəmlə çayı, tök ver görək.
Anamın dilbər gəlini!
Yadlara açma əlini.

Sarı sünbül bizim çörək,
Pambığımız çiçək-çiçək,
Hər üzümdən bir şirə çək
Səhər-səhər acqarına,
Qüvvət olsun qollarına.

Min Qazaxda köhlən ata,
Yalmanına yata-yata,
At qan-tərə bata-bata,
Göy yaylaqlar belinə qalx,
Kəpəz dağdan Göy gölə bax!..

Bir dön bizim Bakıya bax,
Sahilləri çıraq-çıraq,
Buruqların hayqıraraq
Nərə salır boz çöllərə,
İşıqlanır hər dağ, dərə.

ŞUŞA

Qoynuna girməyə qalmışdır bir az,
Könül fərəhlənib eylədi pərvaz;
Ölməyib görəydim seyrini hər yaz,
Səndə vardır başqa lətafət, Şuşa!

Dağlarından qopar havalı yellər,
Ah, o sərin yellər, səfalı yellər;
Dağıdıb huşumu divanə eylər,
Vüsalın hər kəsə səadət, Şuşa!

Xırdaca-xırdaca yağışın yağar,
Çək-çisək içindən günəşin doğar,
Bir ağız bir bulaq suyunu soğar,
Eyləyirsən yenə qiyamət, Şuşa!

Bir əcəb gülşəndir torpağın, daşın,
Dumanlı dağlardır həyat yoldaşın,
Bir ağrı gördümü ömründə başın,
Ey fitrən xəlq olmuş təbabət, Şuşa!



YADIMA DÜŞDÜ

Başına döndüyüm gül üzlü sona!
Ömrümün ilk çağı yadıma düşdü.
Şairlər vətəni bizim tərəflər,
Tərlanın oylağı yadıma düşdü.

Oxuyun qəlbimi dastan içində,
Ürək döyünməzmi astan içində?
Payızın fəslində bostan içində
Şamamanın tağı yadıma düşdü.

Töküldü kağıza sinəmin sözü,
O ana yurdumun ocağı, közü,
Ceyranın duruşu, durnanın gözü
Kəkliyin ayağı yadıma düşdü.

Hanı at sürdüyüm boranda, qarda?
Gəzdim aşıq kimi minbir diyarda;
Gülüb oynadığım toyda, mağarda,
Qızların qolbağı yadıma düşdü.

Göylərə baş çəkir Göyəzən dağı,
Axşam açıq olur ayın qabağı;
Bizim gəlinlərin bayram qabağı
Fəsəli yaymağı yadıma düşdü.

Sən bizim ellərin ruhuna bir bax!
Bizdən inciməmiş bir əziz qonaq.
Nişanlı qızların görüşdən qabaq
Telini saymağı yadıma düşdü.

Vurğunun xəyalı gəzdi aranı,
Gözümdə oynadı dağın boranı;
Qışın buz qatığı, yayın ayranı,
Payızın qaymağı yadıma düşdü.

DAĞLAR

Yenə də durursan pəhlivan kimi,
Çirməyib qolunu mərdanə, dağlar!
Könül yenə bəhri-bipayan kimi
Səslənir çalxana-çalxana, dağlar!

Mən çox istərdim ki, sənin heç zaman
Örtməsin o dilbər hüsnünü duman.
Elin zərərindən mənfəət uman
Boyansın, demişəm, al qana, dağlar!

Zirvəndəki söyüd göylərə çatır,
Kölgəsində yorğun yolçular yatır;
Maralın, ceyranın min işvə satır,
Su göndər bu yerdə yanana, dağlar!

Çox gözəl olursan ellər köçəndə,
Suyundan gəlinlər, qızlar içəndə;
Qıy vurub tərlanın yel tək keçəndə
Bir vəlvələ düşər hər yana, dağlar!

BAHAR ŞƏRQİSİ

(Körpələrə)

Günəş doğdu, yayıldı,
Yatan ellər ayıldı.
Açdı çiçəkli güllər,
Dilə gəldi bülbüllər.
Qar, çovğun gözdən itdi,
Dağlarda lalə bitdi.
Qanadlandı buludlar;
Yerdəki əlvan otlar
Cücərib boy atdılar,
Aləmə naz satdılar.
Artdı suların səsi,
Sevindirdi hər kəsi.



Səməd Vurğun

AZƏRBAYCAN

Məsləhətçi: **f.e.d., professor Y. Seyidov**
Yenidən işlənmiş nəşrin redaktoru: **Z. Cəfərov**
Bədii redaktoru: **D. İsmayılov**
Texniki redaktoru: **V. Seyidova**
Rəssamlar: **G. Hüseynova, N. Yunusov**
Kompüter dizaynı: **T. Mehdiyev**
Korrektoru: **S. Əkrəm Cəfər oğlu**

Buraxılışa və yayıma məsul: A. İbrahimov

Yığılmağa verilmiş: 15.08.2001. Çapa imzalanmış: 01.09.2001.
Kağız formatı: 60x84 1/16. Şərti ç/v 0,75. Sifariş № 604. Tirajı 10000 ədəd
"Günün səsi" ictimai-siyasi qəzeti redaksiyasının kompüter
mərkəzində yığılıb səhifələnmiş,
"CBS Polygraphic Production" firmasının mətbəəsində çap olunmuşdur.